**Enerji statistikası üzrə Oslo qrupunun Abu Dabi şəhərində keçirilmiş 9-cu işçi görüşü haqqında**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Sənaye və tikinti statistikası şöbəsinin baş məsləhətçisi Nərgiz Babayeva Birləşmiş Millətlər Təşkilatının (BMT) Enerji statistikası üzrə Oslo qrupunun və Birləşmiş Ərəb Əmirliyi Milli Statistika İdarəsinin 2014-cü il 5-8 may tarixlərində Abu Dabi şəhərində təşkil etdikləri işçi görüşündə iştirak etmişdir. Tədbir "Enerji statistikasının aparılmasına dair vəsaitin" son versiyasının bölmələr üzrə əhatə olunan məsələlərə və ölkə təcrübələrinə dair məlumatlara baxış məqsədilə keçirilmişdir.

Tədbirin keçirilməsində əsas məqsəd enerji statistikasının təkmilləşdirilməsi üçün enerji statistikası ilə biləvasitə məşğul olan statistikləri cəlb etməklə, onlara daha qabaqcıl təcrübələrin öyrədilməsi, uyğun metod və üsulların tətbiqi üçün əlavə imkanların yaradılması və üstün metodologiyaların işlənməsidir.

Tədbirdə 6 beynəlxalq təşkilatdan - Birləşmiş Millətlər Təşkilatı (BMT), Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (İRENA), Dəniz Ətrafı Ölkələr İcması (GCC-STAT), Beynəlxalq Enerji Agentliyi (İEA), Avrostat, Beynəlxalq Atom Enerjisi Agentliyi (İAEA) və Avstriya, Azərbaycan, Kanada, Qana, Lüksemburq, İsveç, Fransa, Hollandiya, Meksika, Çin, Böyük Britaniya, Cənubi Afrika, Küveyt, Polşa, Finlandiya, Misir, Danimarka, Fələstin, Malayziya, BƏƏ, Oman və Qətər ölkələrindən, ümumilikdə 50 nəfərə yaxın mütəxəssis iştirak etmişdir.

Tədbir çərçivəsində "Enerji statistikasının aparılmasına dair vəsait"in yenilənmiş son versiyası müzakirə edilmişdir. Vəsaitin 3-cü, 4-cü və 5-ci fəsillərində Avstriya, Kanada, Norveç, İsveç, Birləşmiş Krallıq və Azərbaycanın nümunələri yerləşdirilmişdir. Tövsiyələrin 3-cü fəslində verilmiş Azərbaycan nümunəsində "Enerji məhsullarının təsnifatı", 4-cü fəslində "Ev təsərrüfatlarında enerji istehlakının müayinəsi haqqında", 5-ci fəslində 2011-ci ilin Enerji Balansı və üç növ məhsul (xam neft, benzin, odun,) üzrə Əmtəə Balansından bəhs edimişdir.

Daha sonra enerji statistikası sahəsində elektron məlumatların toplanması sistemindən istifadə, statistik məlumat və metaməlumatların dəyişməsi, məlumatların online rejimində toplanması və yayılması sahəsində Malayziyanın təcrübəsi və BEA-nın elektron sistemi sahəsində təcrübəsi barəsində təqdimatlar olmuşdur.

Sonuncu gün tədbirin gündəliyinə uyğun olaraq Enerji məlumatlarının yayılması sahəsində Misir,Qana və Hollandiya statistiklərinin təqdimatları olmuş və Enerji məlumatlarının keyfiyyətinin yoxlanılması mövzusunda Avstriya və Kanada mütəxəssisləri çıxış etmişlər.

Tədbir Oslo qrupunun sədri Andu Kohutun son çıxışı ilə başa çatdırılmışdır. O, enerji statistikasına dair vəsaitin yaxın gələcəkdə işıq üzü görəcəyini və növbəti tədbirin Meksikada keçiriləcəyini bildirmişdir.